

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 131 (23.293)

17 iyul 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yarım ilin yekunları müzakirə edilib



*Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, 2019-cu ilin birinci yarım ilində iqtisadiyyatın, sənayenin, sosial-mədəni və infrastruktur sahələrin inkişafı, məşğulluğun səviyyəsinin artırılması istiqamətində bir sıra işlər görülüb.*

Qeyd olunub ki, bəhs olunan dövrdə Naxçıvan şəhərində "Saat Meydanı" turistik istirahət mərkəzinin, 2 yaşayış binasının, Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin Maye Qaz Anbarı və Qazdoldurma Stansiyasının, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksinin, 200 yerlik 2 nömrəli körpələr evi – uşaq bağçasının tikintisi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin inzibati binasının, 2 yaşayış binasının, Naxçıvan şəhərdaxili avtomobil yollarının, İlham Əliyev adına Olimpiya İdman Kompleksinin əsaslı təmiri və yenidən qurulması başa çatdırılıb. Hazırda Əlahiddə Ümumqoşun Ordu üçün mərkəzi hərbi xəstəxananın, hərbi zavodun, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin, 400 yerlik avtomobil parkının, Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binalarının, 5 nömrəli tam orta məktəb binasının, Cəmşid Naxçıvanskinin ev-muzeyinin, məscidin, 2 yaşayış binasının tikintisi, 3 yaşayış binasının əsaslı təmiri və yenidən qurulması, Yusif Küseyr oğlu türbəsinin bərpası, Naxçıvançay sahilində bulvarın yaradılması davam etdirilir.

İcra Hakimiyyətinin başçısı bildirib ki, 2019-cu ilin yanvar-iyul aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 390 milyon 875 min 100 manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin dəyəri 3 faiz artaraq 378 milyon 977 min 400 manat təşkil edib.

Diqqətə çatdırılıb ki, bəhs olunan dövrdə Naxçıvan şəhərində 404 milyon 915 min 400 manatlıq sənaye, 3 milyon 813 min 700 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Əvvəlki illərdə olduğu kimi, strateji əhəmiyyət kəsb edən taxılçılığın inkişafı bu il də diqqətdə saxlanılıb. Belə ki, cari ilin məhsulu üçün ötən ilin payızında 2095 hektar sahədə əkin aparılıb.

Vurğulanıb ki, hər il olduğu kimi, 2019-cu ildə də Naxçıvan şəhərinin yerli büdcəsi subsidiyasız planlaşdırılıb. Cari ilin birinci yarım ilində 7 milyon 804 min 100 manat plana qarşı, 8 milyon 192 min manat vəsait toplanıb ki, bu da plana 105 faiz əməl olunması deməkdir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 8 fevral tarixli "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq 8,1 hektar yeni meyvə bağı salınıb, 11 hektarda bərpa işləri aparılıb.

Sosial-humanitar sahədəki inkişaf haqqında danışan Mirsənani Seyidov qeyd edib ki, əhalinin müdafiəsini təmin etmək üçün Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya ödənişlərinə 27 milyon 440 min 282 manat, sosial sığorta ödənişinə isə 561 min 322 manat vəsait ödənilib. Cari ilin 6 ayında Naxçıvan şəhərində sağlamlıq imkanları məhdud 4 nəfərə mənzil, 34-nə köməkçi reabilitasiya vasitələri, 23 nəfərə əlil arabası, 5 nəfərə eşitmə aparatı verilib.

Bildirilib ki, cari ilin birinci yarım ilində Naxçıvan şəhərində müxtəlif idman növləri üzrə 30 muxtar respublika çempionatı, turniri və birinciliyi, 36 Naxçıvan şəhər turnir və birincilikləri keçirilib. Bu il Naxçıvan şəhəri 3 beynəlxalq yarışa ev sahibliyi edib. 2019-cu ilin birinci yarım ilində Naxçıvan şəhərindən 155 idmançı beynəlxalq, Azərbaycan, 228-i isə muxtar respublika yarışlarının qalibi olub.

Çıxışının sonunda beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında yerli icra hakimiyyəti orqanlarının da qarşısına qoyulmuş vəzifələrə toxunan İcra Hakimiyyətinin başçısı diqqətə çatdırıb ki, işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, ailə təsərrüfatlarının inkişafı ilə bağlı yeni təkliflər hazırlanmalı, qabaqcıl ailə təsərrüfatlarının təcrübələri yayılmalı, bu təsərrüfatlarda istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməlidir.

Sonra çıxışlar olub.

**Əli CABBAROV**

*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin 2019-cu ilin II toplanış ilkin hazırlıq kursunu bitirmiş gənc polis əməkdaşlarının andiçmə mərasimi keçirilib.*

## Gənc polis əməkdaşlarının andiçmə mərasimi olub



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov çıxış edərək bildirib ki, son dövrlərdə həyata keçirilən tədbirlər gənclərin təşəbbüskar, müstəqil və mübariz ruhda tərbiyəsinə, dövlət quruculuğu işlərinə yaxından cəlb edilməsi məsələsinin ön plana çəkilməsinə xidmət edib. Daxili işlər orqanlarının fəaliyyətinə yaradılan şərait və polisin cəmiyyətdə tutduğu mövqe son dövrlər bu orqanda xidmət etmək arzusunda olanların sayını xeyli artırıb.

Qeyd olunub ki, daxili işlər orqanlarında xidmətə yeni qəbul edilən gənc əməkdaşların müstəqil xidmətə başlamaları münasibətilə keçirilən andiçmə mərasimi hər bir polis əməkdaşının həyatında ən yaddaqalan və əhəmiyyətli bir gündür. Əməkdaşlar qəbul etdiyi bu anda sadiq qalmalı, polis adını daim uca tutmalı, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, peşəkarlıqlarını artırmaq üçün daim öz üzərlərində çalışmalıdırlar.

Nazirliyin Kadrlar şöbəsinin rəisi, polis kapitanı Səadət İsgəndərli çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi muxtar respublikanın daxili işlər orqanlarında kadr potensialının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Hazırda Orta İxtisas Polis Məktəbinin inzibati bina kompleksinin tikilməsi, əməkdaşların peşə hazırlığının yüksəldilməsi üçün dərs proqramlarının və təhsil müddətinin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi və andiçmə mərasiminin dövlətçilik tariximizin təbliği baxımından mühüm əhəmiyyət kəsb edən Dövlət Bayrağı Muzeyində keçirilməsi göstərilən yüksək diqqətin bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, ilkin hazırlıq kursunu müvəffəqiyyətlə başa vurmuş 15 gənc polis əməkdaşı bütün xidmət dövrü anda sadiq qalmalı, ictimai asayişin və təhlükəsizliyin təmin olunması istiqamətində vəzifə borcunu ləyaqətlə yerinə yetirməlidir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov çıxışında gənc əməkdaşları təbrik edərək bildirib ki, Orta İxtisas Polis Məktəbində təşkil olunan xüsusi hazırlıq kursları səriştəli polis əməkdaşı yetişdirilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli təşkilati-hazırlıq prosesidir. Polis veteranları da mütəmadi olaraq həmin məktəbdə, eləcə də əməkdaşların xidmət etdikləri polis orqanlarında olur, peşəkarlığın artırılması sahəsində lazımi köməkliklər göstərirlər. Bundan sonra da bu istiqamətdə tədbirlər davam etdiriləcək.

Sonra andiçmə mərasimi başlayıb, gənc əməkdaşlar təntənəli şəkildə polis andı içiblər.

Tədbirdə polis sıravisi Şamxal Mərdanlı çıxış edərək gənc polis əməkdaşları adından yaradılan şəraitə və göstərilən etimada görə dövlətimizə minnətdarlıq edib, Vətənə, xalqa, dövlətə sədaqət ruhunda xidmət edəcəklərini bildirib.

Sonda Dövlət Bayrağı Muzeyində nümayiş etdirilən eksponatlara baxış olub.

**Nail ƏSGƏROV**

*Muxtar respublikada iqtisadi və sosial sahələrdə həyata keçirilən mühüm tədbirlər əhalinin rifah halının yaxşılaşmasına müsbət təsir göstərməklə yanaşı, demoqrafik göstəricilərin də pozitivliyini təmin edib.*

## Cari ilin oktyabr ayında əhalinin növbəti siyahıya alınması keçiriləcəkdir

Əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu daha geniş məlumatların əldə edilməsi məqsədilə muxtar respublikada növbəti siyahıyaalma keçiriləcəkdir. Siyahıyaalma vahid prinsiplər və proqram əsasında bütün ərazidə, eyni zamanda adbaad, mərkəzləşdirilmiş qaydada sorğu yolu ilə aparılacaqdır.

Siyahıyaalma hər bir ölkənin, dövlətin milli statistikasının əsasını təşkil edib demoqrafik və sosial vəziyyət barədə ən vacib məlumat mənbələrindən biri hesab edilir. Bundan əlavə, siyahıyaalma cəmiyyətin siyasi həyatı üçün bir növ stimuldur və ictimai resursların ədalətli istifadəsinə, paylanmasına yardım edir.

Əhalinin siyahıya alınması mühüm dövlət tədbiri kimi BMT-nin tövsiyələrinə uyğun olaraq ölkəmizdə hər 10 ildən bir keçirilir. Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra ölkəmizdə, o cümlədən muxtar respublikada 1999 və 2009-cu illərdə əhalinin siyahıya alınması keçirilib.

Əhalinin növbəti siyahıya alınması Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu il oktyabrın 1-dən 10-dək aparılacaqdır.

Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınması üzrə hazırlıq işlərinin görülməsi, onun keçirilməsi, bu sahədə müvafiq nazirlik, komitə, idarə və təşkilatların, şəhər və rayon icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 2016-cı il 26 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasına yardım komissiyasının yaradılması haqqında" Sərəncam imzalanıb. Müvafiq sərəncamın icrası istiqamətində 2017-ci ildə Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasına yardım komissiyasının iş planı təsdiq edilib. Planda yerinə yetiriləcək işlər müəyyənləşdirilib, şəhər və rayon icra hakimiyyətlərində əhalinin siyahıya alınmasına yardım komissiyaları yaradılıb, icraya məsul orqanlara konkret tapşırıqlar verilib.

Mühüm dövlət tədbirinin əsas icraçısı kimi əhalinin siyahıya alınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinə həvalə olunub.

Təsdiq olunmuş iş planına əsasən muxtar respublikanın şəhər və rayonlarının yaşayış məntəqələri üzrə sxematik plan və xəritələri hazırlanıb, evlərin, mənzillərin sayı və digər göstəricilər haqqında məlumatlar dəqiqləşdirilib. Əldə olunmuş məlumatlar əsasında muxtar respublikanın hər bir inzibati ərazi vahidi üzrə təşkilati planlar hazırlanıb. Təşkilati plana əsasən şəhər və qəsəbələr üzrə siyahıyaalma məntəqələrinin, şəhər və qəsəbələr üzrə təlimatçı və sayıcı məntəqələrinin, kənd yerlərində siyahıyaalma məntəqəsinin təlimatçı və sayıcı məntəqələri üzrə tərkibləri müəyyənləşdirilib, şəhər, qəsəbə və kənd yerlərində siyahıyaalmanın rayonlaşdırılması başa çatdırılıb.

Əvvəlki siyahıyaalmalardan fərqli olaraq sorğu vərəqəsinə ilk dəfə daxil edilmiş əlilliyə dair suallar sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraiti, təhsili və məşğulluğu haqqında yeni məlumatların əldə edilməsinə şərait yaradacaq.

Əhalinin siyahıya alınmasında əmək bazarının əsas göstəriciləri olan iqtisadi-fəal, məşğul, işsiz və qeyri-fəal əhali haqqında geniş məlumat əldə etmək imkanı yaranır ki, bu da, öz növbəsində, bu sahədə geniş tədqiqatların aparılmasına imkan verir.

Şifahi sorğu yolu ilə keçirilən siyahıyaalma zamanı ayrı-ayrı şəxslər haqqında toplanmış fərdi göstəricilər xüsusi proqrama daxil edilərək ümumiləşdirilib yekun məlumatlar əldə edilir.

Qeyd etmək lazımdır ki, 2009-cu ildə muxtar respublikada keçirilmiş siyahıyaalmada əhalinin sayı 398,3 min nəfər olub ki, bunun da 198,3 min nəfərini və ya 49,8 faizini kişilər, 200 min nəfərini və ya 50,2 faizini isə qadınlar təşkil edib. Əhalinin 115,5 min nəfəri və ya 29 faizi şəhərlərdə, 282,8 min nəfəri və ya 71 faizi kəndlərdə məskunlaşıb.

1 may 2019-cu il tarixə muxtar respublikada əhalinin sayı 457 min nəfərə yaxın olub ki, bu da 2009-cu ilin aprel ayında keçirilmiş siyahıyaalma dövründə qeydə alınmış əhali sayından 58,7 min nəfər çoxdur. Müqayisə üçün deyək ki, ikinci siyahıyaalmada əhalinin sayı birinci siyahıyaalma dövründən 44,2 min nəfər çox olub. Heç şübhəsiz ki, muxtar respublikada cəmiyyətin əsas özəyi kimi ailənin dövlətin xüsusi himayəsində olması, həmçinin iqtisadi və sosial sahələrdə əldə olunmuş uğurlu inkişaf əhalinin dinamik artımını təmin edən mühüm amillərdir.

Davamlı inkişafın təmin edilməsində mühüm informasiya mənbəyi olan əhalinin siyahıya alınması üzrə həyata keçirilən hazırlıq işləri genişmiqyaslı tədbirin muxtar respublikada vaxtında və mütəşəkkil keçirilməsinə imkan yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Muxtar respublika iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işlərin əsasını yerli resurslardan istifadə olunması ilə sahibkarlığın fəaliyyətinin genişləndirilməsi təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlər istehsal müəssisələrində müxtəlif növdə və çeşiddə məhsul istehsalına əlverişli şərait yaradır. Görülən işlərin nəticəsidir ki, bu gün artıq mənşəyi Naxçıvan olan məhsullar həm yerli, həm də regional bazarlarda özünə böyük istehlakçı kütləsi qazanıb. Son illər öz məhsulları ilə istehlakçılar arasında böyük rəğbət qazanan sahibkarlıq subyektlərindən biri də "Naxçıvan Məhsulları" publik hüquqi şəxsdir.***

# *"Naxçıvan Məhsulları"* daxili bazarı keyfiyyətli məhsullarla təmin edir

Ötən dövrdə muxtar respublikamıza xas brend məhsullarla bazarı təmin etməyə çalışan bu müəssisə ixracyönümlü və rəqabətqabiliyyətli məhsullar istehsal etmək üzrə ixtisaslaşıb. Müəssisənin rəhbəri Vüsal Quliyev bizimlə söhbətində bildirdi ki, 2014-cü ildə təsis edilmiş "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti hazırda bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı və qablaşdırılması üzrə fəaliyyət göstərir. 2016-cı ildən isə həm də dövlət müəssisə və təşkilatlarını ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin edir.

Öyrəndik ki, hazırda burada mövsümə uyğun olaraq müxtəlif meyvələrin qurudulması işi həyata keçirilir. Bunun üçün müəssisədə meyvə qurutmaq üçün avadanlıqlar quraşdırılıb. Müsahibimiz bildirdi ki, Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları bu sahədə yeni imkanlar açıb. Xüsusilə son illərdə muxtar diyarımızda meyvə istehsalının həcmi artıb. Bu da imkan verir ki, tarixən bu sahədə qazanılmış təcrübə geniş tətbiq olunsun. Bunun üçün mövsümə uyğun olaraq muxtar respublikamızın müxtəlif bölgələrində yetişdirilən meyvələr tərəfimizdən qəbul olunur. Bu işdə ailə təsərrüfatlarının rolu xüsusilə böyükdür.

Meyvələrin qurudulması və qablaşdırılması prosesi necə aparılır? – sualına isə həmsöhbətim belə cavab verdi:

– Adətən, meyvələrin qurudulması iki üsulla aparılır. Ənənəvi olaraq günəş işığında, həm də meyvəqurutma üçün cihazların köməyi ilə. Hər iki üsulla meyvələr qurudularkən tərkibindəki vitaminlər öz keyfiyyətini saxlayır. Qurutma vaxtı məhsuldakı su buxarlanır və məhsulun özülü qalır. Buna görə quru meyvənin tərkibi xüsusilə karbohidrat, vitamin, proteinlərlə zəngin olur. Quru meyvələrin faydası da uzun illərdir, insanlara məlumdur. Keçmişdən bəri meyvələri qurutmaqda əsas məqsəd ilin digər fəsillərində də onlardan istifadə etməkdir. Bizim müəssisədə də tədarük olunan meyvələr gigiyenik şərtlərə uyğun olaraq yuyulub təmizləndikdən sonra, əsasən, doğranaraq meyvə-



qurutma cihazlarında qurudulur. Hər meyvənin qurudulması üçün müvafiq istilik dərəcəsi lazımdır. Avadanlıqlarda bu istilik təmin olunduqdan sonra meyvələr müəyyən zaman ərzində quruyur. Sonrakı mərhələ isə əldə olunmuş məhsulun qablaşdırılmasıdır. Hazırda "Naxçıvan Məhsulları" publik hüquqi şəxsdə, ümumilikdə, 40-dan artıq çeşiddə meyvə qurusu istehsal olunaraq qablaşdırılır. Ərik, alma, alça, qovun, xurma, banan, ananas, şaftalı, gavalı və digər meyvələrin qurudularaq satışa çıxarılması alıcılar tərəfindən böyük maraqla qarşılanır. Yaxın gələcəkdə kəklikotu, məzrə, qızılgül, o cümlədən müxtəlif giləmeyvələrin qablaşdırılması da nəzərdə tutulur.

Müsahibimiz bildirdi ki, yüksək keyfiyyət standartlarına cavab verən 30, 40, 50, 65, 70, 80, 100, 120, 160 qramlıq plastik, 90 və 250 qramlıq taxta və şüşə taralarda istehsal edilən bu məhsulların muxtar respublikamızın ticarət obyektlərində və ölkəmizin paytaxtında satışı həyata keçirilir. Gələcəkdə həmin məhsulların Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan və İran İslam respublikalarına göndərilməsi də nəzərdə tutulur.

Vüsal Quliyev onu da əlavə etdi ki, bu il aprelin 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Məhsulları" publik hüquqi şəxsin yaradılması və muxtar respublikada ərzaq məhsullarının istehsalı, tədarükü və təchizatı işinin tənzimlənməsi haqqında Sərəncam imzalayıb. Bu sərəncamdan sonra müəssisənin fəaliyyəti yeni mərhələyə qədəm qoyub. Belə ki, indi daha yaxşı məhsul istehsal etməli, bu məhsulların satış bazarını daha da genişləndirməliyik. Əvvəlki illərdə olduğu kimi, cari ildə də Naxçıvanın keyfiyyətli məhsullarının tanıdılması məqsədilə müəssisəmizin istər yerli, istərsə də xarici ölkələrdə keçirilən müxtəlif sərgilərdə iştirak etməsi və istehlakçıların məhsullarımıza olan marağı onu deməyə imkan verir ki, yerli məhsullarımızın satış həcmini daha da artıracağıq. Bu, eyni zamanda muxtar respublikamızın tanıdılması və təbliği sahəsinə də öz töhfəsini verəcək.

Bəli, bu gün muxtar respublikamızda yüzlərlə növ və çeşiddə istehsal olunan məhsulların içərisində "Naxçıvan Məhsulları"nın öz yeri var. Ümid edirik ki, yaradılmış şərait, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, ailə təsərrüfatlarının sayının getdikcə artması və həyata keçirilən digər tədbirlər yerli məhsullarımızın tezliklə xarici bazarlarda öz yerini tutmasına imkan verəcək.

**Səbuhi HƏSƏNOV**

*Mütəxəssis sözü*

# Tütünçülük iqtisadi cəhətdən gəlirli sahədir

***Bu gün dünyanın 125 ölkəsində 4 milyon hektar sahədə becərilən tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alıb. Əhalisinin sayı 7 milyardı keçən Yer kürəsində tütün sektoru ən böyük sənaye sahələrindən biridir. Dünyada gün ərzində satış dəyəri, təxminən, 5 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyonu keçib. Dünya tütün istehsalçıları arasında Azərbaycanın da müəyyən qədər payı var. Ötən əsrin 70-80-ci illərində respublikamızda tütünçülük güclü inkişaf edib, bu sahədən yaxşı gəlir götürülüb. 1980-ci ildə tütün istehsalı ən yüksək həddə – 60 min tona çatdırılıb.***





Muxtar respublikada da tütünçülüyün sürətli inkişafı ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Həmin dövrdə tütünçülük əhalinin əsas məşğuliyyəti və gəlir mənbəyi hesab olunurdu. Muxtar respublikada tütün istehsalının həcmi 1977-ci ildə ən yüksək səviyyəyə – 9739 tona çatmışdı. O da vurğulanmalıdır ki, tütünçülüyün inkişaf etdirilməsində muxtar respublikada fəaliyyət göstərmiş Tütün Fermentasiya Zavodunun böyük rolu olub.

Tədarük olunan məhsul zavod tərəfindən qəbul edildikdən sonra dəyəri ödənilirdi. 1992-ci ildə muxtar respublikada aparılan aqrar islahatlar nəticəsində xüsusi mülkiyyətə əsaslanan təsərrüfat formaları yaradıldı. Buna baxmayaraq, islahatlar gedən müddətdə geniş həcmdə olmasa da, tütün əkilib-becərilirdi. Belə ki, 1999-cu ildə 97 hektardan 155 ton, 2000-ci ildə 16 hektardan 28 ton, 2001-ci ildə isə 30 hektardan 5,5 ton məhsul istehsal edilib və bundan sonra tütün əkini dayandırılıb.

2018-ci təsərrüfat ilində isə ailə təsərrüfatları və torpaq mülkiyyətçiləri tərəfindən 41,5 hektar sahədə yüksəkkeyfiyyətli tütün bitkisi əkilib və sahələrdən 51,5 ton məhsul istehsal olunub. Tütün əkinləri zamanı, əsasən, Türkiyədən gətirilmiş İzmir və Virciniya sortlarından istifadə edilir.

Artıq muxtar respublikamızda tütün əkinlərinə başlanılıb. Tütün sahələrindən gələcəkdə yüksək məhsul götürülməsi üçün şitil əkinləri aqrotexniki qaydalara uyğun hazırlanmalıdır. Tütün əkiləcək sahələr ən yaxşı sələf bitkisi olan dənli, dənli-paxlalı və yem bitkilərindən sonra əkilərsə, yüksək və keyfiyyətli məhsul götürmək olar. Tütün şitillərinin kökləri nə qədər çox və sağlam olarsa, şitillər sahələrə basdırıldıqda bitkilər daha tez inkişaf edər. Bunun üçün də becərmə tədbirləri vaxtında və düzgün həyata keçirilməlidir. Tütün bitkisindən sağlam məhsul alınması üçün mineral gübrələrdən düzgün istifadə olunmalıdır. Bu bitki qida maddələrinə yüksək dərəcədə tələbkardır. Tütün əkiləcək sahələrin hər hektarına 15-20 ton üzvi gübrə, təsiredici maddə hesabı ilə 120-140 kiloqram fosfor, 100-120 kiloqram kalium gübrəsi verilməklə şum aparılmalıdır. Təsiredici maddə hesabı ilə nəzərdə tutulan 45-90 kiloqram azot gübrəsi isə becərmə zamanı yemləmə şəklində verilməlidir. Şitillərin sahələrə əkilməsi muxtar respublika şəraitinə uyğun olaraq mayın 20-dək aparılır. İriyarpaqlı sortların əkini zamanı 70 x 40 santimetr əkin sxemindən istifadə etməklə hər hektara 36 min, xırdayarpaqlı sortların əkini zamanı isə 60 x 20 santimetr əkin sxemindən istifadə edilir, hər hektar sahəyə 83 min ədəd şitil əkilir. Şitillər torpağa köçürüldükdən 3-4 gün sonra sahələr suvarılmalıdır ki, şitillər yaxşı tutsun. Əkilmiş bitkinin vegetasiya dövründə aqrotexniki tədbirlərlə yanaşı, mineral gübrələrdən normalara uyğun istifadə etmək lazımdır.

Azot gübrələri tütün bitkisinin məhsuldarlığına müsbət təsir etsə də, onun keyfiyyətini ancaq müəyyən şəraitdə yaxşılaşdıra bilir. Qüvvəli torpaqlara artıq miqdarda azotlu gübrə verildikdə tütün yarpaqları kobudlaşıb tünd yaşıl rəng alır, nəticədə, tütünün keyfiyyəti aşağı düşür.

Fosfor gübrəsi bitkinin kök sisteminin, gövdəsinin, həm də yarpaqlarının hərtərəfli inkişaf etməsində mühüm rol oynayır. Bunlarla yanaşı, vegetasiya dövrünü qısaldır, yarpaqlara açıq rəng verir, nəticədə, tütünün keyfiyyəti yaxşılaşır. Lakin fosforu da artıq verdikdə yarpaqları tez qocaldır, məhsuldarlığı aşağı salır.

Kaliumlu gübrələr bitkinin ümumi inkişafına yaxşı təsir göstərməklə keyfiyyətli məhsul alınmasında mühüm rola malikdir. Ən yaxşı halda bu gübrələrin birlikdə (kompoze) verilməsi məsləhət görülür.

Muxtar respublikamızda tütünün əkilib-becərilməsi üçün hərtərəfli şərait vardır. Belə ki, əvvəlki illərdən fərqli olaraq şitillərin texnika ilə torpağa basdırılması, tütünçülərin tütün şitili ilə təmin olunması, məhsulun qısa vaxt ərzində dəyərinin ödənilməsi torpaq mülkiyyətçilərinin bu sahəyə olan marağını daha da artırıb.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatlarının, sahibkarların iqtisadi cəhətdən xeyli gəlirli olan bu təsərrüfat sahəsindən böyük həcmdə gəlir əldə etmələrinə imkan verə bilər.

Onu da qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" 2016-cı il 5 oktyabr tarixli Sərəncamına əsasən quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə 0,05 manat məbləğində subsidiyanın müəyyənləşdirilməsi bu sahənin inkişafına təkan verib.

**Xaliq ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

# Vergi daxilolmaları üzrə proqnozlar artıqlaması ilə icra olunub



Dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergitutma bazasının genişləndirilməsi, səmərəli vergi inzibatçılığının və vergi nəzarətinin həyata keçirilməsi, vergi qanunvericiliyinə edilmiş dəyişikliklərdən irəli gələrək vergi uçotunun düzgün qurulması Vergilər Nazirliyinin əsas fəaliyyət istiqamətləridir. 2019-cu ilin əvvəlindən vergi yükünün azaldılması və yeni vergi güzəştlərinin tətbiqinə baxmayaraq, istər vergi daxilolmalarında, istərsə də ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli artım olub. Ötən dövr ərzində vergi intizamının daha da gücləndirilməsi, vətəndaşlarda vergi qanunvericiliyinə hörmətlə yanaşmaq və əməl etmək bacarığı öz müsbət nəticələrini verib. Belə ki, 2019-cu ilin birinci yarım ili ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz 108,7 faiz icra edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,7 faiz çoxdur. Daxil olmuş vəsaitlərin mənbəyinə gəldikdə isə onların 36,8 faizi dövlət sektorunun, 63,2 faizi isə özəl sektorun payına düşüb. Özəl sektor üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,6 faiz artıb.

Ölkəmizdə işləyənlərin sosial müdafiəsi məcburi sosial sığortalanma əsasında aparılır və təyin edilən sosial ödənişlərə uyğun olaraq şəxslər sosial risklərlə qarşılaşdıqda (pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək və sair) sosial sığorta ödəmələrini almaq hüququna malik olurlar. 2019-cu ilin birinci yarım ili ərzində məcburi dövlət sosial sığorta ödəmələri sahəsində vətəndaşlarla və vergiödəyiciləri ilə keçirilən maarifləndirici görüşlərin nəticəsidir ki, bu sahədə vergi daxilolmaları əhəmiyyətli dərəcədə artıb. Belə ki, qeyd olunan dövr ərzində məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 144,8 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 139,5 faiz əməl edilib.

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəldilib. Belə ki, nazirliyin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 2019-cu ilin birinci yarım ili ərzində 20 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, 2327 fiziki şəxs isə sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 72,7 faizi və ya 1691 sahibkar muxtar respublikanın rayonlarının payına düşür. Bütün bu müsbət göstəricilər özəl sektora göstərilən diqqət və qayğının ən bariz nümunəsidir.

Vergiödəyiciləri ilə aparılan maarifləndirmə və məlumatlandırma tədbirlərinin nəticəsidir ki, nazirlik 2019-cu ilin birinci yarım ilini vergi borcu olmadan başa vurub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

Axtarışlar, tapıntılar

# Araza uzanan dəmir kanatlar, Yakutiya maralları üçün sifariş, duz yoluna çevrilmiş stansiya

***Bu ərazinin adının çoxları kimi, mənə də çoxdan tanış olmasına baxmayaraq, mənasını heç cür anlaya bilmirdim. Açığı bunu öyrənmək üçün elə bir səy də göstərməmişdim. Sadəcə, məqamı düşdükcə soruşduğum insanlardan aldığım cavab – “bilmirəm” idi. Yəqin ki, mərhum dilçi alim Adil Bağırovun Naxçıvan oykonimləri ilə bağlı tədqiqatları olmasaydı, “Başbaşı” haqqında toponimik məlumatlarımın kasadlığı ilə qənaətlənməli olacaqdım. Alim qeyd edir ki, “Başbaşı” adı bəzi mənbələrdə kənd adı kimi qeyd olunsa da, bura kənd yox, vaxtilə heyvandarların qışlama üçün istifadə etdikləri müvəqqəti yaşayış məntəqəsi olub, sonralar isə Bakı-İrəvan dəmiryol xətti ərazidən keçdiyi üçün buraya Başbaşı dəmiryol stansiyası adı verilib. “Başbaşı” adı tədqiqatçılar tərəfindən “təpənin başı”, “təpənin üstü” mənasında açıqlanır. Yerli əhali isə buraya təpələrin bitkisiz, çılpaq olduğuna görə Bozbaşlı adını verib. Odur ki, Başbaşı adı Bozbaşlı sözünün canlı danışıq dilindəki variantıdır.***

Doğrudan da, ərazi Araz çayı boyunca uzanan boz və çılpaq təpələrdən ibarətdir. Bizim isə söhbətimiz ərazi ilə deyil, buradakı dəmir yolu stansiyası ilə bağlıdır. O stansiya ki vaxtilə muxtar respublika ərazisində mövcud olan stansiyalar içərisində adla seçilib. Naxçıvan, Culfa, Şahtaxtı kimi məşhur stansiyalardan fərqli olaraq Başbaşı stansiyasında vaqonlara gündəlik yüklənən yükün həcmi min tonlarla ölçülüb. Və bu yüklərə keçmiş ittifaqın hər yerində ehtiyac olub. Elə bu və bir azdan açıqlayacağım digər amillərə görə Başbaşı stansiyasının adı hər yerdə tanınıb. İndilik isə avtomobil yolu ilə istiqamətimiz bir azdan haqqında bəhs edəcəyimiz Başbaşı stansiyasınadır…

Stansiyaya dəmir yolu ilə deyil, məhz avtomobillə getməyimizin səbəbi Duzdağ istiqamətindən Başbaşıya uzanan dəmiryol xətti haqqında həmsöhbətimdən soruşacaqlarıma həm də əyani cavab almaq idi.

Birinci ondan başlayaq ki, Naxçıvanda magistral avtomobil yolları ilə kəsişən iki dəmiryol körpüsü var. Yəni körpünün üstü qatarların, altı isə avtomobillərin hərəkəti üçün nəzərdə tutulub. Bunlardan biri hazırda Babək rayonunun ərazisində yerləşir ki, vaxtilə bu dəmiryol xəttinin çəkilməsində məqsəd Sirab kəndində istehsal olunan məşhur “Sirab” sularının birbaşa Naxçıvan dəmir yolları vasitəsilə muxtar respublikadan kənara daşımaq olub. Lakin işin müəyyən bir qismi görülsə də, ötən əsrin sonlarında mövcud vəziyyətlə əlaqədar olaraq bu iş dayandırılıb. Digər belə bir körpü isə Naxçıvan-Sədərək magistral yolu üzərində tikilmişdi ki, bu dəmir yolu da, əsasən, Duzdağ istiqamətindən Başbaşı stansiyasına qədər uzanırdı. Ancaq adıçəkilən magistral yol yenidən qurulan zaman körpünün avtomobil yolu ilə arasındakı hündürlük məsafəsi az olduğuna görə sökülməsi qərara alınıb. Çoxları kimi mən də bu dəmiryol xəttindən, əsasən, duz daşınmasında istifadə olunduğunu eşitmişdim. Amma yolboyu bizimlə həmsöhbət olan, hazırda Başbaşı stansiyasının rəisi vəzifəsində çalışan Müseyib Abdinov bildirdi ki, bu dəmir yolunun çəkilməsi duz daşınması üçün nəzərdə tutulmayıb. Düzdür, əvvəllər belə bir layihə nəzərdə tutulsa da, bu, mümkün olmayıb. Çünki duz mədənlərinə doğru getdikcə relyefin yüksəlməsi 50-60 vaqonluq yük qatarlarının ərazidə hərəkətini məhdudlaşdırdığından sovet dövründə bu dəmir yolu xəttindən nisbətən yaxın məsafəyə hərbi təyinatlı yüklərin daşınmasında istifadə olunub. Müstəqilliyimizin bərpasından sonra isə bu dəmir yolu marşrutunda bir daha yük vaqonları görünməyib. İndi isə qayıdaq Başbaşı stansiyasına.

Başbaşı stansiyası Naxçıvan şəhərindən, təxminən, 12 kilometr cənub-qərbdə yerləşir. Bu stansiyanın yaradılması hələ 1908-ci ildə Culfa-Uluxanlı dəmir yolu xəttinin çəkilməsi zamanına təsadüf edir. Həmin ərazidə əvvəllər dəmir yolu xətti düz Arazın yaxınlığından keçirdi. 1971-ci ildə Araz Su Elektrik Stansiyasının inşası səbəbi ilə Araz çayı boyunca Şahtaxtı kəndinədək 38 kilometr uzunluğunda dəmir yolu xətti, təxminən, 100 metr içəriyə doğru çəkilir. Beləliklə, Başbaşı stansiyası da indi mövcud olduğu yerdə salınır. Həmin dövrdə burada stansiya üçün lazımi infrastruktur binaları tikilir, sərnişinlərin gedişgəlişi üçün şərait yaradılır. Yəqin düşünəcəksiniz ki, yaşayış məntəqələrindən uzaqda yerləşən bu stansiyadan hansı sərnişinlər istifadə edib? Bu sualı mən də müsahibimə vermişdim. 1982-ci ildən dəmiryol sahəsində çalışan Müseyib müəllim dedi ki, Başbaşı stansiyasından sovet dövründə, əsasən, Böyükdüz, Təzəkənd, Xıncab kəndlərinin sakinləri istifadə ediblər. Xüsusilə bu kəndlərin hərbi xidmətə gedən gəncləri Naxçıvan və Şahtaxtı stansiyaları uzaq olduğundan buradan yola salınıblar. Amma stansiya daha çox burada yüklənən və məhz bu stansiyaya göndərilən malların həcminə görə digərlərindən fərqlənib. Və bu malların içərisində Naxçıvanın təbii sərvəti olan daşduz xüsusi rol oynayıb. Yuxarıda qeyd etdiyimiz kimi, əvvəllər Duzdağa yaxın ərazidən Başbaşıya qədər dəmiryol xətti çəkilib. Ancaq bu xətlə duz daşınmayıb. Ümumiyyətlə, Sovetlər Birliyi yaradılandan Naxçıvandan duzun böyük həcmdə ixracı yalnız dəmir yolu vasitəsilə həyata keçirilib. Məsələ burasındadır ki, mədənlərdən stansiyaya qədər duzun daşınması 1968-1970-ci illərədək yalnız bu, ondan sonra isə digər vasitələrlə olub. Hər iki prosesin canlı şahidi olmuş və 1954-cü ildən dəmir yollarında müxtəlif vəzifələrdə çalışmış Naxçıvan şəhər Qaraxanbəyli kənd sakini 86 yaşlı Rüstəm Quliyev bizimlə söhbətində bildirdi ki, o, uzun müddət Başbaşı stansiyasında malların yüklənməsi sahəsinə nəzarət edib. Dedi ki, Araz çayı üzərində elektrik stansiyası tikilənədək duzun daşınması mədənlərdən Başbaşıya çəkilmiş kanatlar vasitəsilə həyata keçirilirdi. Bu kanatların ayaq dirəklərinin yeri indiyədək qalmaqdadır. Elə Naxçıvan-Sədərək magistral yolundan Başbaşıya dönən avtomobil yolu ilə gəlsəniz, yol kənarlarında, təxminən, 30-40 metrdən bir bu kanatların beton tökülmüş ayaqlıqlarına rast gələ bilərsiniz. Kanatların yükgötürən qovuşları isə dörddayaqlı dəmir dirəklərin üzərinə bağlanmış möhkəm troslar vasitəsilə hərəkət edərək düz stansiyaya qədər gəlir və burada dayanmış üstüaçıq vaqonlara boşaldılırdı. Elektrik stansiyasının tikintisi ilə əlaqədar stansiyanın yeri dəyişdirildikdən sonra hansısa səbəblərə görə duzun kanatla daşınmasına da son qoyulur. Bu kanatlar xeyli müddət baxımsız qalır, onların bəzilərinin söküntüləri su elektrik stansiyası tikilərkən suyun altında qalıb, bəzilərinin isə ayaq dirəklərinə isə indi də stansiya ərazisində rast gəlinir.



Kanatlardan sonra duzun daşınmasında, əsasən, yük avtomobillərindən istifadə olunub. Bunun üçün Başbaşı stansiyası ərazisində xüsusi bir yer də düzəldilir. Müseyib Abdinov həmin yeri bizə göstərərək bildirdi ki, yüksəklikdə yerləşən bu yerdən avtomobillər yükü birbaşa vaqonlara boşaldarmışlar. Bəs gün ərzində nə qədər yük daşınarmış buradan? Rüstəm dayı deyir ki, bir vaqona 60 ton hesabı ilə nəzərə alsaq, iki günə 50-60 vaqon yüklənirdi. Bu da, təxminən, 3000-3500 ton daşduz deməkdir. Sözün həqiqi mənasında, duz yükü aparan belə vaqonlara isə SSRİ-nin hər yerindən, uzaq Sibirdən belə, sifarişlər gəlirdi. Bir də görürdün, Yakutiyadan sifarişlər gəlib ki, oradakı maralların tələbatının ödənilməsi üçün filan qədər duza ehtiyacımız var. Eyni zamanda buradan xammal kimi göndərilən daşduzun emalı üçün də müxtəlif bölgələrdə sənaye müəssisələri var idi. O müəssisələrdən də daim sifarişlər gəlirdi. Bir sözlə, Naxçıvanın bu təbii daşduzu kimə lazım deyildi ki?

Qocaman dəmiryolçu onu da qeyd etdi ki, Duzdağda müalicəxana yaradıldıqdan sonra bura keçmiş ittifaqın bir çox yerlərindən gəlməyə başladılar. Və onların da əksəriyyəti gəlib Başbaşı stansiyasında düşürdü. Biz isə müalicəxana ilə əlaqə saxlayıb onlara məlumat verir və oradan göndərilən avtobusla xəstələri mərkəzə yola salırdıq.

Başbaşı stansiyası təkcə göndərilən deyil, eyni zamanda bura gətirilən yüklərin həcmi ilə də tanınırdı. Belə yüklər içərisində kənd təsərrüfatı texnikaları və onların ehtiyat hissələri, o cümlədən əkinçilikdə istifadə olunan müxtəlif mineral gübrələr çoxluq təşkil edirdi. Bu da səbəbsiz deyil. Çünki muxtar respublikanın yeganə Maşın Traktor Stansiyası, el dili ilə desək, MTS-i Başbaşının bir addımlığında yerləşirdi. Təxminən, müasir aqrolizinqin funksiyalarını yerinə yetirən həmin stansiyaya Rusiya və digər müttəfiq respublikalardan müxtəlif maşın-mexanizmlər və onların ehtiyat hissələri, gübrələr, qoşqular və sair göndərilirdi.

*Bəli, Başbaşı ötən dövrdə məhz belə tanınmış stansiyalardan olub. Ümid edirik ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda dəmir yolları ilə bağlı həyata keçirilən strateji layihələr gələcəkdə Başbaşı stansiyasının da şöhrətini özünə qaytaracaq. Ən azından ona görə ki, duz istehsalında olduğu kimi, ən böyük layihələrdən sayılan Naxçıvan Sənaye Kompleksində istehsal olunan tikinti məhsullarının böyük həcmdə və sərfəli üsulla daşınmasında da bu stansiyanın həmin obyektlərə yaxınlığı ona geniş imkanlar yaradır. Bunun isə bir az zamana ehtiyacı var.*

**Səbuhi HƏSƏNOV**

Gəncliyimiz, gələcəyimiz

# Ülvi gənclik arzusunun zirvəsində

***İllər ayları, aylar həftələri, həftələr isə günləri əvəz edir. Bu gün birinci sinfə yola saldığımız övladlarımız göz açıb yumana kimi bir də görürük ki, artıq 11-ci sinfi bitirib, tələbə adını qazanmağa çalışırlar. Bu il də minlərlə abituriyent ali təhsil ocaqlarında oxumaq, ixtisaslı kadr olub gələcəkdə Vətəninə layiq biri kimi yetişmək üçün imtahanlarda iştirak etdi. Onlardan bir çoxu yüksək bal toplayaraq uğur qazandı. Minlərlə tələbənin ailəsində sevinc hissləri yaşandı. Valideynlər övladları ilə qürur duydular, keçirdikləri həyəcan, intizar artıq geridə qaldı. Hər il olduğu kimi, bu il də qəbul imtahanlarındakı nəticələri ilə muxtar respublikamızda təhsilin yüksək səviyyədə olduğunu sübuta yetirən, öz uğurları ilə hər birimizi sevindirən gənclərimizlə həmsöhbət oluruq.***

Müsahiblərimiz Sədərək rayonunun təhsil ocaqlarının müvəffəqiyyət qazanan məzunlarıdır. Birinci qrupda yüksək nəticə göstərərək 546 bal toplayan **Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu Arzu Adnalı** deyir:



– Muxtar respublikamızda gənclərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait mövcuddur. Doğma diyarımızda hər il yeni məktəb binaları inşa olunur, onlar müasir texnologiyalarla təmin edilirlər. Hər birimiz fəxr edir, qürur hissi keçiririk ki, son illərdə rayonumuzda da təhsil müəssisələri tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Təhsil aldığım 1 nömrəli tam orta məktəb də bunlardan biridir. Məktəbdə yeniyetmə və gənclərin hərtərəfli təhsil alması üçün hər cür şərait mövcuddur. Təbii ki, belə təhsil ocaqlarını bitirən məzunun ali məktəbə qəbul olması heç də çətin deyil. Mən də yaradılan imkanlardan istifadə edərək orta məktəb illərində bilik yarışmalarında, fənn olimpiadalarında fəal iştirak etmişəm, həmişə də nəticələrim yüksək olub. Bütün bunlar təhsilimi ali məktəbdə davam etdirmək arzumun gerçəkləşməsi üçün möhkəm təməl yaradıb. Ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərməyim də bunu bir daha təsdiq edir.

Arzu bildirir ki, nailiyyət qazanmaq üçün hər hansı bir şansın sənin ayağına qədər gələcəyini gözləməməli, öz şansını özün ayağına gətirməli, yəni yaratmalısan. Qoyduğunuz məqsədə çatmaq üçün plan qursanız və bu plan üzrə doğru addımlar atsanız, şans da sizə o qədər yaxın olar. Hədəfləri təyin edərkən mütləq planlı şəkildə və özünəinam hissi ilə başlamaq lazımdır. Özünə inanmayan şəxsin uğur qazanması çətindir. Bir məzun planlı və özünəinamla bir hədəf seçmişdirsə, mütləq arzusuna nail olacaq və hədəfinə gedən yolda heç bir problem onun qarşısını ala bilməyəcək.

Uşaqlıqdan müəllim peşəsini çox sevmişəm. Artıq 10-cu sinfə çatanda qarşıma məqsəd qoydum ki, müəllim olacağam. Valideynlərim də bu qərarıma dəstək oldular və məni ruhlandırdılar. Hesab edirəm ki, arzuma çatmışam. Naxçıvan Dövlət Universitetinin Riyaziyyat-informatika ixtisasını seçmək istəyirəm.



Həmin məktəbin digər məzunu **Müslüm Əlizadə** üçüncü qrupda 525 bal toplayıb. Onun arzusu hüquqşünas olub gələcəkdə ədalətin qoruyucularından birinə çevrilməkdir. O deyir ki, hansı sənəti seçirsənsə seç, ilk növbədə, vətənpərvər olmalısan. Vətənpərvərlik ən ali dəyərdir. Vətənə sevgisi olan hər bir insan tutduğu vəzifədən asılı olmayaraq, uğur qazana bilər. Muxtar respublikamızda insan amilinə, təhsilə çox ciddi diqqət yetirilir. Bu diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq. Müslüm onu da qeyd etdi ki, hələ məktəbdə oxuduğu illərdə ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamış məzunlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görüşünü izləyər və bu görüşün ona da qismət olmasını arzulayarmış. Artıq mən də xoşbəxt yaşayan məzunlardan biriyəm. Və bu görüşü səbirsizliklə gözləyirəm. Həmin görüş həyatımın ən unudulmaz günlərindən biri olacaq.

**Nurşən Məmişova** ikinci qrupda 513 bal toplayıb. O, Sədərək kənd 2 nömrəli tam orta məktəbin məzunudur:



– Tələbə adını qazanmaq şansım mənə dünyanın sevincini bəxş edib, artıq böyük yolun başlanğıcındayam. Bu yolu uğurla keçib biliyimlə, fəaliyyətimlə xalqımıza xeyir verəcəyim günlər isə əsl xoşbəxt çağlarıma çevriləcək. Həqiqətən də, tələbə adını qazanmaq böyük sevincdir. Çünki çoxlarına nəsib olmayan, ancaq arzusunda olduğu bir ali təhsil ocağının üzvünə çevrilmək insana qürur verir. Əminəm ki, dövlət qayğısının əhatəsində böyüyən gənclər buna nail olacaqlar.

Nurşən Dövlət və bələdiyyə idarəetməsi ixtisasını seçəcəyini bildirir və deyir ki, bu ixtisasa yiyələnib, idarəetmənin müxtəlif sahələri üzrə biliklər əldə edib dövlət orqanlarında mütəxəssis kimi işləmək arzusundadır. Tələbə adını qazanan hər bir məzun çalışmalıdır ki, oxuduğu günlərin, ayların, illərin qədrini bilsin və bu illərdən maksimum faydalansın. Universitetin bütün imkanlarından istifadə edərək mükəmməl elm, yüksək bilik əldə etsin, təcrübə toplayaraq hərtərəfli, kamil bir insan kimi yetişsin. Gələcəkdə istənilən vəzifədə çalışanda vəzifəsinin məsuliyyətini hiss etməyi bacarsın.

*Bu gün bir daha əmin oluruq ki, müasir Azərbaycan təhsili özünün zəngin, mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf etməkdədir. Bu istiqamətdə qazanılan bütün nailiyyətlər ulu öndər Heydər Əliyev ideyalarından güc alır. Biz də hər bir gəncə qazanacağı tələbə adının böyük şərəf və məsuliyyət olduğunu layiqincə dərk etməyi arzulayırıq.*

**Ramiyyə ƏKBƏROVA**

*Nə zaman özümü tənha hiss etsəm, şəhərimizin bu gözəl guşəsinə üz tuturam. Nədənsə, burada rahatlıq tapıram. Bir tərəfdə Naxçıvanın şanlı dövlətçilik tarixini özündə yaşadan Xan sarayı, bir tərəfdə qadın ismətinə, ana şərafətinə bəslədiyimiz ülvi hisslərin ən böyük təcəssümü olan Möminə xatın türbəsi... Sinəsində qədim tarixi abidələrimizə qucaq açan Əcəmi seyrəngahı... Bəli, bəhs etdiyimiz bu sirli-soraqlı məkan Qızlar bulağıdır... Şəhərimizin ən sakit guşələrindən biri olan bu yerlər bir zamanlar Atabəylərin şəhər mərkəzi, Kəngərlilərin iqamətgahı kimi əsrlərə, əsrlərin gərdişinə şahidlik edib...*

# Gəlmişəm telinə sığal çəkməyə

## *(Esse)*



Buradan şəhərimizin aşağı məhəllələrini canlandıran mənzərələri seyr etmək mənə daha xoş gəlir. Xüsusən gümüş kəmərtək parlayan xan Arazın səltənətinin seyrinə daldıqca doyumsuz gözəlliklərin şahidi olursan. Axşam tərəfi qürub edən Günəşin şəfəqləri Arazı rəngdən-rəngə boyayır.

Gözümün önündə canlanan bir maraqlı mənzərə də var burada. Adama elə gəlir ki, burada nə zamansa yer yerindən oynayıb. Uca qayalar parçalanaraq sinəsində sevənlərə yer ayırıb. Nə zaman buraya üz tutsam, uzun-uzadı salınan pillələrlə aşağı doğru enirəm. Elə buradaca ağlıma gözəl şairimiz Muxtar Qasımzadənin bu misraları düşür...

*Qaya pilləkəndən enib gəlirəm*
*Yanında qalmağa, Qızlar bulağı.*
*Bir həzin nəğməyə dönüb gəlirəm,*
*Mən sənin olmağa, Qızlar bulağı.*

Yayda səs-səsə verən su damlaları, qışda buz şəlaləli Qızlar bulağı... Əfsanə və rəvayətlərdə adıçəkilən, şəninə nəğmələr qoşulan, şeirlərdə vəsf edilən nazlı təbiət gözəli... Heç düşünmüsünüzmü bura niyə “Qızlar bulağı” adlandırılıb?



Hər ziyarətə gəldiyimdə bu sualla dərin düşüncələrə qapılıram. Bəlkə də, qayaların arasından daranıb süzülən mirvari su damlaları qızların zülfünə bənzədiyi üçün buraya Qızlar bulağı adı veriblər:

*Yüz ildir, min ildir saçın qurumur,*
*Yaşıl səltənətin, tacın qurumur.*
*Buludlar quruyur, damcın qurumur,*
*Düşmüşəm marağa, Qızlar bulağı.*

Ya da ki, çiynində səhənglə incəbelli qızlara məskən açdığı üçün bu adla tarixə yazılıb Qızlar bulağı. Axı bizim qədim adətlərimizdə “bulaq başı” ənənəsi də var idi. Bir neçə yüz il bundan qabağa qədər subay qızlar əllərində səhəng bulaq başında bir araya gələrdilər. Subay oğlanlar isə zər-zibalı geyimli qızlar arasından öz yarını seçmək üçün ətrafda pusqu qurardılar.

Nənəmdən eşitdiklərimi yada salıram. O, anasından qalan bir xatirəsini bölüşərkən deyirdi: “Anam bütün övladlarını evləndirib, yan-yöng etmişdi. Bircə ən kiçik qardaşımı “yola gətirə” bilmirdi. Yaşı-başı ötürdü. Bir gün paltarlarını səliqəyə salanda cibindən kiçik bir məktub tapmışdı. Sadəcə, bu sözlər yazılmışdı: “Axşam gün batanda, bulaq başında”. O zaman kiçik oğlunun da öz yarını tapdığına əmin olan anam sevincək toy tədarükünə başlamışdı”.

*Payız da yaşılsan, qış da yaşılsan,*
*Sən mamır qanadlı tovuz quşusan,*
*Sevən ürəklərə elçi daşısan-*
*Xəyala dalmağa, Qızlar bulağı.*

Bəli, beləcə, neçə-neçə saf, ülvi məhəbbətin təməli atılardı bulaq başında. Dövr dəyişdi, adətlər cilalandı, bəziləri unuduldu. Sonrakı dövrlərdə bulaq başı ənənəsi də tədricən arxaikləşdi. Lakin Qızlar bulağı yenə də unudulmadı. Yenə də bu nazlı diyar sevgililərin görüş



yerinə çevrildi. Bu möcüzəli qayalar sinəsində minlərlə sevginin tarixçəsini daşıdı. Qayaların arasından tumurcuqlanan su damlaları neçə-neçə sevgini yuyub-arındıraraq saf məhəbbətə çevirdi.

Bəzən də bir zamanlar qovuşmaq arzusunda olan nakam sevginin ümid yeri oldu. “Bəlkə, yenə gəldi” həsrətilə hər gün ona pənah gətirənlərin göz yaşına çevrildi bu damlalar...

İndi Qızlar bulağının özü də nakamdır. Bu cür tanışlıqlarla, gizli görüşlərlə çoxdan vidalaşıb. İndi artıq görüş yeri dəyişib. Gənclər Qızlar bulağını tərk edib sosial şəbəkələrdə vədələşirlər. Bu sakit mənzərəni tək-tük sevgili ziyarətə gəlir. Bir də mənim kimi darıxanlar...

Beş-on il əvvəli göz önünə gətirirəm. Uşaqlığımda da tez-tez gələrdim bu sirli aləmə. O zamanlar necə də çılğın idin, Qızlar bulağı! Bəzən coşqun, bəzən həzin avazı ilə məni ovsunlayan narın damlaların zülfünə əllərimlə sığal çəkərdim. Narın-narın axan suların həzin nəğməsində sakitlik tapardım. Bir qədər kənarda, Bazarçayın dərin yarğanda əks-səda verən şəlaləsi bu sakitliyi pozardı. Bu əzəmətli qayaların arasından bir neçə sərin su bulaq da çağlayardı. Hər gəldiyimdə ovcunu doldurub sərinlik tapan insanlara mütləq rast gələrdim.

Hərdən fikirləşirəm ki, yoxsa küskündür Qızlar bulağı? Bəzən mənə elə gəlir ki, nə buz bulaqlar, nə hayqıran şəlalə, nə də qayaları yaşıl mamıra bürüyən narın su damlaları əvvəlkitək gur axır. Hərdən səssiz axan zərif su damlaları bəzən də vüsala qovuşanların sevinc göz yaşıdır sanki...

*Yaqin həsrət idin səsə, şənliyə*
*İndi son qoymusan daha təkliyə.*
*Gəlmişəm, telinə sığal çəkməyə,*
*Könlünü almağa, Qızlar bulağı.*

✍ **Gülcamal TAHİROVA**

# İxtisasartırma kursları təşkil edilib



Muxtar respublikamızda bütün sahələrdə, xüsusilə də təhsil sahəsində mütəxəssislərin informasiya-kommunikasiya texnologiyaları ilə işləmək və onlardan düzgün istifadə etmək bacarıqlarının yaxşılaşdırılmasına böyük önəm verilir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi yay tətili günlərində ümumtəhsil məktəblərində çalışan müəllimlər üçün peşə məktəblərində elektron lövhə istifadəçisi və kompüter istifadəçisi ixtisasartırma kursları təşkil edib. Şərur və Ordubad Texniki Peşə və Sürücülük Məktəblərində və Naxçıvan Şəhər Peşə Liseyində təşkil olunan kurslara muxtar respublika ümumtəhsil məktəblərində çalışan müəllimlərdən 73-ü elektron lövhə, 63-ü isə kompüter istifadəçisi olmaqla, ümumilikdə, 6 qrup üzrə 136 müəllim cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 25 avqust 2016-cı il tarixli Qərarı ilə təsdiq olunmuş Tədris Planına əsasən elektron lövhə istifadəçisi kursu bir ay, kompüter istifadəçisi kursu isə iki ay müddətinə tədris olunur. Kurs müddətində müəllimlərə kompüter texnologiyasının əsasları, İKT proqramları, tətbiqi proqramlar, eləcə də “Smart Notebook” proqramı öyrədiləcəkdir.

Bununla yanaşı, Naxçıvan Şəhər Peşə Liseyi və Şərur Texniki Peşə və Sürücülük Məktəbində payız-qış mövsümünə hazırlıq məqsədilə ümumtəhsil məktəbləri ilə yanaşı, digər müəssisə və təşkilatlarda çalışan, sertifikatı olmayan ocaqçılar üçün də qazanxana maşinisti ixtisasartırma kursu təşkil olunub. Hazırda bu kursda 34 müdavim təhsil alır.

Kursları başa vuran müdavimlər müvafiq sertifikatla təmin olunacaqlar.

Yay tətili dövründə peşə məktəblərində ixtisasartırma kurslarının davam etdirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Oxunması zəruri olan kitablar gənclərin gözü ilə*

# Məhəmməd Tağı Sidqinin “*Məktəb hekayələri*” haqqında




Böyük Azərbaycan maarifçisi, pedaqoq, şair-publisist Məhəmməd Tağı Sidqi Ordubadda “Əxtər”, Naxçıvanda isə “Tərbiyə” məktəbini təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmış, ədəbi-mədəni tədbirlərin əsas təşkilatçılarından olmuşdur. Xalqın maariflənməsi üçün elmin, məktəbin əhəmiyyətini dərk edən böyük mütəfəkkirimiz uşaqların məktəbə cəlbi üçün çox çalışmışdır. Onun “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan “Məktəb hekayələri” kitabında məktəbin, elmin əhəmiyyətindən, ədəbli olmağın, yalançılıq və qorxaqlıqdan uzaq olmağın yollarından geniş bəhs edilmişdir. Sidqi öz hekayələrində insanın əvvəlinci vəzifəsinin elm təhsil etmək olduğunu göstərmiş, elmsiz insanı ruhsuz cisim kimi qiymətləndirmişdir. Elmə talib olanı isə alim hesab etmiş, amma özünü elmə malik biləni cahil kimi qələmə vermişdir. Hekayələrini oxuduqca məndə maarifçi, şair və pedaqoqun orijinal bir uşaq yazıçısı olması barədə əyani təsəvvür yarandı.

“Məktəb hekayələri”ndə “Məktəb nədir?” – sualına cavab axtarılır. *“Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim və divanələri aqil eylər. Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir”.*

“Məktəbə gec gələn uşaq” hekayəsində məktəbə vaxtında gəlməyin vacibliyindən söhbət açılır və məktəbə gecikmək tənqid olunur. Böyük mütəfəkkirin bu qəbildən olan hekayələri elmə, bilikli və savadlı olmağa, məktəbin görmədiyimiz, bilmədiyimiz tərəflərini dərindən dərk etməyə biz şagirdlərdə maraq oyadır.

Yazıçının pedaqoji mülahizələr və tərbiyəvi misallarla zəngin əsərlərini oxuduqca insanın həyata baxışı dəyişilir, dünyagörüşü artır, düşüncələri yeni-yeni yaradıcı fikirlərlə daha qabarıq şəkildə əks olunur. Mən çox sevinirəm ki, biz məktəblilər bu böyük şair, maarifçi və pedaqoqun hekayələrini oxuyub onları öz aramızda müzakirə edir, öyrəndiyimiz dəyərli nəsihətləri bir-birimizlə paylaşırıq. Çünki Məhəmməd Tağı Sidqinin əsərləri, həqiqətən də, heç nə ilə əvəz olunmayan ən qiymətli xəzinə, sözün əsl mənasında, bizim üçün böyük bir “Məktəb”dir.

**Fəridə MƏMMƏDOVA**
***Babək rayon Şəkərabad kənd tam orta məktəbinin X sinif şagirdi***

# Kikboksinq üzrə şəhər birinciliyi



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında yeniyetmə və gənclər arasında kikboksinq üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur, Babək, Kəngərli rayonlarının, həmçinin “Turan” və “Odlar yurdu” idman klublarının idmançıları da iştirak ediblər.

2 yaş qrupunda 11 çəki dərəcəsi üzrə 60-a yaxın idmançının iştirak etdiyi yarışın yekununa əsasən 13-15 yaş qrupunda Sadiq Hacıyev (36 kiloqram, Naxçıvan), Azər Zamanlı (39 kiloqram, Naxçıvan), Vaqif Orucov (42 kiloqram, “Turan” İK), Şəmsəddin Əliyev (47 kiloqram, Naxçıvan), Miryusif Seyidbəyli (52 kiloqram, “Turan” İK), Elton Səfərli (57 kiloqram, Kəngərli) və Fərid Məhərrəmov (63,5 kiloqram, “Turan” İK), 15-17 yaş qrupunda isə Raul Seyidli (48 kiloqram, Şərur), Qənbər Nəqiyev (54 kiloqram, Naxçıvan), Ayhat İmranlı (60 kiloqram, Şərur) və Sunay Şükürlü (71 kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılar təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Hansı işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır?*

**Cavab**: Konstitusiyamıza əsasən uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

Əmək qanunvericiliyinə və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununa əsasən əmək şəraiti ağır, zərərli olan iş yerlərində, yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə əxlaqi kamilliyin inkişafına mənfi təsir göstərən gecə klublarında, barlarında, kazinolarda, o cümlədən spirtli içkilərin və toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı işlərdə yaşı 18-dən az olan şəxslərin əməyinin tətbiq edilməsi qadağandır. İcbari ümumi orta təhsil haqqında qanunvericiliyin şamil edildiyi yaşı 18-dən az olan şəxslərin bu təhsilini tam həcmdə almaq imkanından məhrum edə bilən işlərə götürülməsi qadağandır.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.9-cu maddəsinə əsasən işəgötürən tərəfindən uşaqların onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsinə görə vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on üç min manatadək məbləğdə cərimə edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*İtmişdir*

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşayan Adıgözəlova Tovuz Ağakişi qızının adına olan JN-318A inventar nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 477